# Ölkədə taxıl biçini uğurla davam edir

***Son illər Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi əhəmiyyətli dərəcədə artıb. Bununla da əhalinin ərzaq təhlükəsizliyi problemi demək olar ki, həllini tapıb. Hazırda ölkə vətəndaşlarının ərzaq və qidaya olan tələbatının əksər hissəsinin yerli istehsal hesabına ödənilməsi reallaşıb. Aqrar sahədə həyata keçirilən islahatlar və görülən tədbirlər barədə danışarkən, qeyd edək ki, lizinq fəaliyyətinin genişləndirilməsi nəticəsində bazarda artıq azad və rəqabətli şərait formalaşıb. Belə ki, texnikaya tətbiq olunan güzəştlər bütün özəl şirkətlərə aid edilib. Ötən il fermerlərə satılan 4117 texnikanın, təxminən, 3 mini özəl şirkətlər tərəfindən fermerlərə satılıb. Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini fermerlərə yaxınlıq prinsipi əsasında qurub və bütün rayonlarda dövlət aqrar inkişaf mərkəzləri artıq formalaşdırılıb. Bu mərkəzlərdə fermerlərə "bir pəncərə" prinsipinə uyğun 60-a yaxın xidmətin göstərilməsinə başlanılıb.***

Əlbəttə, bu göstəricilərin əldə olunması, ilk növbədə, ölkə Prezidentinin sözügedən sahəyə diqqəti və dövlət tərəfindən göstərilən dəstəklə bağlıdır. Belə ki, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin uzadılması bunun bariz ifadəsidir.



Regionların inkişafını özündə ehtiva edən dövlət proqramlarının vaxtında və yüksək səviyyədə icra olunması da Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, aqrar sahədə mövcud istehsal müəssisələrinin fəaliyyətinin gücləndirilməsinə, yeni istehsal sahələrinin yaradılmasına, yerli resurslardan istifadənin səmərəsinin artırılmasına, kənd təsərrüfatında islahatların sürətlənməsinə yol açıb.

Yeri gəlmişkən, respublikada ilk dəfə aqrar sığortanın genişmiqyaslı tətbiqi üçün hüquqi baza formalaşıb. Milli Məclis tərəfindən "Aqrar sığorta haqqında" Qanun qəbul olunub, Nazirlər Kabineti Aqrar Sığorta Fondunun Nizamnaməsini və "Aqrar sığorta predmetinin tərkibini" təsdiqləyib. Bununla da Azərbaycanda aqrar sığorta mexanizmi Türkiyənin TARSİM modelinin təcrübəsi əsasında qurulmağa başlanıb. Xatırladaq ki, bu model dövlət-özəl sektor əməkdaşlığına əsaslanır.

Yeri gəlmişkən, onu da deyək ki, nüfuzlu beynəlxalq qurumların hesabatlarına əsasən son illər ərzində Azərbaycanın ərzaq təhlükəsizliyi göstəricisi əsaslı şəkildə yüksəlib. Bu baxımdan "The Economist Group" tərəfindən hazırlanan "Qlobal ərzaq təhlükəsizliyi indeksi"nə diqqət yetirmək kifayətdir. Bu hesabata əsasən, son 7 il ərzində Azərbaycanın ümumi ərzaq təhlükəsizliyi indeksində ardıcıl şəkildə yüksəlmə müşahidə olunub. Hesabata görə, bu yüksəliş göstərilən dövrdə 12,7 faiz bəndi təşkil edib.

Bununla yanaşı, 250 min hektar sahədə buğda biçini aparılıb. Ümumi biçiləcək sahə isə 570 min hektardır. Ümumilikdə, buğda sahələrinin 44 faizində biçin başa çatıb və 793 min ton məhsul istehsal edilib. Buğdanın məhsuldarlığı 31,9 sentner təşkil edir. Bu, göstərir ki, tarlada məhsul boldur.

Onu da qeyd edək ki, ölkə üzrə 394 min hektar ərazidə arpa əkinləri aparılıb. Artıq həmin ərazilərin 81 faizi biçilib. Hektardan məhsuldarlıq 28,4 sentner təşkil edir, 910 min ton arpa məhsulu biçilib və tədarük edilib.

Azərbaycan ailələri üçün çörək əsas istehlak məhsullarından biri olmaqla yanaşı, mətbəxdə xüsusi paya malikdir. Rəsmi statistikaya görə, respublikamızın illik buğda tələbatı 3,5 milyon tondur. Azərbaycanda buğdaya olan bu tələbin 40 faizi, yəni 1 milyon tondan çox hissəsi idxal hesabına ödənilir.

Azərbaycan buğda ilə bağlı ehtiyatlarını ötən ilin sonu və bu ilin əvvəli daha da artırmağı qarşıya mühüm vəzifə kimi qoyub. Məhz bunun nəticəsidir ki, təkcə cari ilin yanvar ayında respublikada buğda idxalında 4 dəfə artım qeydə alınıb. Preventiv olaraq, Azərbaycan strateji məhsullar ehtiyatlarını da artıraraq, dünya bazarındakı potensial qıtlığa reaksiya verməyə çalışıb. Ancaq ixracata qadağalar Azərbaycanın buğda idxalına da təsir edib. Belə ki, cari ilin ilk 4 ayında Azərbaycana 105 milyon 270 min dollar dəyərində 308 min 43 ton buğda idxal olunub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə buğda idxalının həcmi 15,7 faiz azalıb. Bir ton buğdanın idxal qiyməti (orta statistik dəyəri) ötən ilin ilk 4 ayında 254,5 dollar idisə, cari ilin sözügedən dövrü üçün 341,7 dollar təşkil edib. İdxal olunan buğdanın qiyməti 34,2 faiz artıb.



Xatırladaq ki, respublikada ərzaq təhlükəsizliyi ilə əlaqədar ötən il ərzində kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət tərəfindən maliyyə dəstəyi olaraq 455 milyon manat vəsait sərf edilib ki, bu da 2020-ci illə müqayisədə 13 faiz çoxdur. Sahibkarlığın İnkişafı Fondu tərəfindən aqrar sektora yönəldilən güzəştli kreditlərin 59 faiz qeydə alınması da məsələnin daim diqqətdə saxlanılmasından xəbər verir.

Bu, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən taxıl, buğda və arpa yığımının açıqlanan həcmləri ilə bağlı göstəricilərdən də aydın görünür.

Xatırladaq ki, hazırda sahələrdən 1 milyon 700 min ton taxıl, 793 min ton buğda, 910 min ton arpa yığılıb.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri İmran Cümşüdovun sözlərinə görə, taxılçılıq kənd təsərrüfatının ərzaq təhlükəsizliyi baxımından vacib sahəsidir: "Ölkədə hazırda taxıl biçini davam edir, cari ilin məhsulu üçün 1 milyon hektardan çox sahədə taxıl əkini aparılıb, bunların 600 min hektara yaxın buğda, 400 min hektara yaxın isə arpa əkinləri təşkil edir. Hazırda biçin davam edir, demək olar ki, ümumi taxıl sahəsində təxminən 58 faizində biçin aparılıb, 570 min hektar biçilib, 1 milyon 700 min ton məhsul istehsal edilib, taxıldan orta məhsuldarlıq 29,9 sentner təşkil edir".

Dünya bazarındakı qeyri-müəyyənlik ərzaq ehtiyatlarının daha da artırılmasını prioritetləşdirir. Təbii ki, ən uyğun yol idxaldan asılılığın aradan qaldırılmasıdır. Ötən il ərzində respublikada 595 min hektar ərazidə buğda əkilib. Praktik olaraq əkin sahələrinin 38 faizi buğda əkini üçün istifadə edilir. İllik buğda istehsalı isə 1,9 milyon tondur. İşğaldan azad olunan ərazilərimizin də buğda istehsalına xüsusi töhfə verəcəyi gözlənilir.

Dünyada qiymət artımları fonunda idxal inflyasiyası qaçılmazdır. Bununla belə, növbəti dövrlərdə qiymətin necə dəyişməsinin beynəlxalq bazardakı dəyişikliklərdən birbaşa asılı olacağı gözlənilir. Nazirlər Kabineti digər alternativ mənbələri təşviq etməklə, o cümlədən yeni güzəşt mexanizmləri ilə ərzaq məhsullarına tələbin ödənilməsində sabitliyi qoruyub saxlamağa çalışır. Ukraynadakı müharibənin dünya bazarında yaratdığı qeyri-müəyyənlik isə dərinləşməkdə davam edir.

**V.BAYRAMOV,**
***"Xalq qəzeti"***